"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi

"Education" Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union

Azərbaycan Respublikası, Lənkəran şəhəri, Heydər Əliyev prospekti 3,
İnternet səh.: www.epsaya.az, E-mail: info@epsaya.az, Tel.: (0 25) 255 09 04, Mob.: (0 55) 792 44 42

# NƏQLİ HESABAT – 2012

## Təsisat tarixi

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.

İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## Məqsəd və vəzifələr

İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.

Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Təşkilati struktur

- Ümumi Yığıncaq (Ali İdaeəetmə Orqanı);
- İdarə Heyyəti (İcra Orqanı);
- Prezident;
- Vitse-prezident;
- Nəzarət Təftiş Komissiyası;
- İcraçı direktor;

- Direktorlar Şurası.

**Həmtəsisçilər və üzvlük**

MAGİYA ictimai birliyinin 3 həmtəsisçisi, 8 üzvü və 9 nəfər könüllüsü vardır. İctimai birliyin nümayəndələri həm respublika daxilində, həm də respublikadan kənarda (Gürcüstan, Belçika, Almaniya və s.) müxtəlif əməkdaşlıq layihələrini böyük uğurla həyata keçirir. İctimai birliyin nümayəndələrindən A.Ə.Məlikov Gürcüstan, Ukrayna, Belçika, Avstriya, Böyük Britaniya, Almaniya, Amerika, N.R.Hüseynzadə Gürcüstan, Amerika, S.R.Hüseynzadə Amerika, Gürcüstan, M.R.Teymurov Ukrayna, Amerika, F.F.Abdullayeva Amerikada keçirilən müxtəlif proqramlarda çox fəal iştirak etmiş və ictimai birliyi həmin ölkələrdə layiqincə təmsil etmişlər.

İctimai birliyə üzvlük pulsuz və könüllüdür. Hər bir 18-35 yaşarası ziyalı gənc ictimai birliyə üzv ola bilər. Bundan ötrü ictimai birliyə müvafiq ərizə ilə müraciət etmək lazımdır.

***MAGİYA ictimai birliyinin həmtəsisçiləri və üzvləri***

| *№* | *Adı və soyadı* | *Vəzifəsi* | *Statusu* |
|---|---|---|---|
| 1 | A.Ə.Məlikov | Prezident | Həmtəsisçi |
| 2 | V.İ.Nəsirli | Vitse-prezident | Həmtəsisçi |
| 3 | Z.Z.Babayev | NTK-nın sədri | Həmtəsisçi |
| 4 | N.R.Hüseynzadə | İcraçı direktor | Üzv |
| 5 | F.F.Abdullayeva | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | Üzv |
| 6 | M.R.Teymurov | İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 7 | S.R.Hüseynzadə | KİV-lə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 8 | E.K.Fəttayev | İnsan resursları şöbəsinin müdiri | Üzv |
| 9 | İ.F.Muradov | Layihələr və tədbirlər şöbəsinin müdiri | Üzv |
| 10 | T.S.Məmmədzadə | Mühasibatlıq və audit şöbəsinin müdiri | Üzv |
| 11 | E.E.Abdullazadə | Vitse-prezidentin assistenti | Üzv |

**Qazandığı mükafatlar**

| *№* | *Məzmun* | *Titul* | *Tarix və yer* | *Təşkilat* |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| 1 | "Yerlərdə Dövlət Gənclər Siyasətini uğurla həyata keçirdiyinə görə" | Fəxri Fərman | 02 fevral 2007-ci il, Lənkəran | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| 2 | "Rayonun ictimai-siyasi həyatındakı fəallığına görə" | Fəxri Fərman | 29 dekabr 2010-cu il, Lənkəran | Lənkəran şəhər İcra Hakimiyyəti |
| 3 | "2011-ci il ərzində göstərdiyi uğurlu fəaliyyətə görə" | Fəxri Diplom | 1 fevral 2012-ci il, Bakı | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |

**Təsis etdiyi mükafatlar**

MAGİYA ictimai birliyi ***"Gənclərin inkişafı sahəsində göstərdiyi dəstəyə görə"*** 27 may 2012-ci il tarixində ***"Gənclərin Dostu"*** adlı ***Fəxri Diplom*** təsis etmişdir.

İlk dəfə "Gənclərin Dostu" adlı Fəxri Diplomla 09 iyul 2012-ci il tarixində ABŞ-ın Milli Demokratiya İnstituitunun ölkə üzrə direktoru cənab Aleks Qriqoryevs təltif olunmuşdur.

**Üzv olduğu qurumlar**

- "Azərbaycan Respublikasının Gənclər Təşkilatlarının Milli Şurası", 2005-ci il;
- "Uşaq hüquqları üzrə QHT Alyansı", 2006-cı il;
- "İnsan Alverinə qarşı QHT Koalisiyası", 2009-cu il.

**Donorlar və Tərəfdaşlar**

- Avropa İttifaqı;
- Statoil Şirkəti;
- Uşaqların Xilası Təşkilatı;
- Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi;
- Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası;
- Beynəlxalq Miqrasiya Təşkilatı.

**Layihələr**

| № | Layihə | Təfsilatı |
|---|---|---|

| | | |
|---|---|---|
| 1 | ***Adı*** | ***“Regionda yaşayan gənclərin liderlik bacarıqlarının artırılması”*** |
| | ***Məqsədi*** | Gənclərin liderlik bacarıqlarının inkişaf etdirilməsi, onların ictimai fəaliyyətə cəlb olunmaları və qərarvermə proseslərində fəal iştiraklarının stimullaşdırılması, gənclərin öz hüquqları haqqında biliklərinin artırılması, yaradıcı düşüncə, səmərəli dinləmə, fəal mövqe bildirmə bacarıqlarının üzə çıxarılması, regional dialoq şəbəkəsinin yaradılması |
| | ***Məbləği*** | 49 990 dollar |
| | ***Tarixi*** | 15 fevral – 15 oktyabr 2012-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| | ***Donorlar*** | ABŞ-ın Milli Demokratiya İnstitutu və Beynəlxalq İnkişaf Agentliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 2 | ***Adı*** | ***“Cənub bölgəsində narkomaniya və HİV/AIDS-ə qarşı mübarizə”*** |
| | ***Məqsədi*** | Cənub bölgəsində narkomaniya və HİV/AİDS-ə qarşı mübarizədə gənclərin ictimai fəallığının artırılması, gənclərin sağlamlıq və sağlam həyat tərzi məsələləri barədə geniş maarifləndirilməsi və məlumatlandırılması, eləcə də, cənub bölgəsində narkomaniya və HİV/AİDS sahəsində ilk yerli təlimçilər şəbəkəsinin təsis olunması |
| | ***Məbləği*** | 3 500 manat |
| | ***Tarixi*** | 19 iyul – 30 noyabr, 2012-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Masallı, Astara və Lənkəran şəhər Gənclər və İdman İdarələri |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 3 | ***Adı*** | ***“Regionlardan olan gənclər üçün liderlik məktəbi”*** |
| | ***Məqsədi*** | Region gənclərinin liderlik bacarıqlarının artırılması, onların |

| | | |
|---|---|---|
| | | menecment imkanlarının üzə çıxarılması, onların səy və fəaliyyətlərini vətəndaş cəmiyyətinin qurulmasına yönəldilməsi və onların ölkədə gedən hüquqi, sosial, iqdisadi, ekoloji və digər islahatların həyata keçirilməsinə cəlb və sövq olunması, həmçinin onların bütövlükdə respublikada baş verən ictimai-siyasi proseslərdə fəal iştirakının təmin edilməsi |
| | ***Məbləği*** | 4 125 manat |
| | ***Tarixi*** | 01 avqust – 29 dekabr, 2012-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| | ***Donorlar*** | AR-nın Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 4 | ***Adı*** | ***"İctimaiyyətin hüquqi maariflənməsində yerli televiziyanın rolunun artırılması"*** |
| | ***Məqsədi*** | "CTV" Regional Televiziya Şirkəti tərəfindən canlı yayımlanan "Müzakirə" verlişində ictimai əhəmiyyət kəsb edən müvafiq məsələlərlə əlaqədar davamlı şəkildə əhalinin hüquqi maarifləndirilməsi və məlumatlandırılması |
| | ***Məbləği*** | 3 000 manat |
| | ***Tarixi*** | 01 oktyabr – 29 dekabr, 2012-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | "CTV" Regional Televiziya Şirkəti |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 5 | ***Adı*** | ***"Uşaq hüquqları konvensiyasının tədrisi"*** |
| | ***Məqsədi*** | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin elan |

| | | |
|---|---|---|
| | | etdiyi uşaq hüquqları aylığı çərçivəsində BMT-nin uşaq hüquqları konvensiyası, uşaqların diskriminasiya, seksual və kommersiya istismarı və qanun pozuntusundan qorunması sahəsində məktəblilərin bilik və təcrübələrinin artırılması |
| | ***Məbləği*** | 8 manat |
| | ***Tarixi*** | 01 – 30 noyabr, 2012-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Həzi Aslanov adına 3 nömrəli tam orta məktəb |
| | ***Donorlar*** | MAGİYA ictimai birliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 6 | ***Adı*** | ***"Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliyi üçün əməkdaşlığın gücləndirilməsi – III faza"*** |
| | ***Məqsədi*** | Aidiyyəti dövlət qurumlarına və vətəndaş cəmiyyəti tərəfdaşlarına potensialların artırılması və texniki yardım vasitəsilə insan alveri ilə mübarizədə hüquqi ədaləti artırmaq, insan alveri qurbanlarına/potensial qurbanlara, habelə işçi miqrantlar, qadınlar və uşaqlara müvafiq yardım xidmətlərinin göstərilməsində müdafiə mexanizmini inkişaf etdirmək |
| | ***Məbləği*** | 9 900 dollar |
| | ***Tarixi*** | 19 oktyabr, 2012-ci il – 28 fevral, 2014-cü il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası |
| | ***Donorlar*** | Beynəlxalq Miqrasiya Təşkilatı |

**Nəşrlər**

***"Cənub bölgəsində narkomaniya və HİV/AİDS-ə qarşı mübarizə"*** layihəsi çərçivəsində bukletlər:

AİDS xəstəliyinin simptomları



*Dərinin çatlaması*

**HIV/AIDS**

**HIV** – Human Immunodeficiency Virus

**AIDS** – Aquared Immuno Dificiency Syndrom

**ВИЧ/СПИД**

**ВИЧ** – Вирус Иммунодефицита Человека

**СПИД** – Синдром Приобретенного Иммуно Дефицита

**İIV/QİÇS**

**İIV** – İnsanın İmmunçatışmazlığı Virusu

**QİÇS** – Qazanılmış İmmun Çatışmazlığı Sindromu



*Bədəndə səpkilər*


**Bu layihə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilir**

**Buklet Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyilə MAGİYA ictimai birliyi tərəfindən nəşr edilmişdir**

**Bukletin məzmunu yalnız MAGİYA ictimai birliyinin cavabdehliyi altındadır və buna heç bir halda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin mövqeyinin əks olunduğu sənəd kimi istinad edilməməlidir**






**LƏNKƏRAN 2012**

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) İctimai Birliyi***


*Əlaqə məlumatları:*

**Ünvan:** AZ 4200, Lənkəran şəhəri, Qala Xiyabanı 12

**İnternet səhifəsi:** www.epsaya.az

**E-mail:** magiya_ngo@yahoo.com

**Telefon:** (+ 994 25) 255 09 04

**Mobil:** (+ 994 55) 792 44 42


**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi**

# "Cənub bölgəsində narkomaniya və HİV/AİDS-ə qarşı mübarizə"



**Özünüzü və yaxınlarınızı HIV/AIDS-dən qoruyun!**

## MAGİYA İCTİMAİ BİRLİYİ HAQQINDA

**MAGİYA ictimai birliyi** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünü idarə edən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökumət təşkilatıdır. İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**Birliyin məqsədi və fəaliyyət predmeti** gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji istiqamətlərdə müvafiq maarifləndirmə və məlumatlandırma işlərinin aparılmasından ibarətdir.

**Birliyin başlıca vəzifələri** onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.


**Özünüzü və yaxınlarınızı HIV/AIDS-dən qoruyun!**


## "CƏNUB BÖLGƏSİNDƏ NARKOMANİYA VƏ HİV/AİDS-Ə QARŞI MÜBARİZƏ"

**HİV/AİDS haqqında**

İnsan HİV virusuna yoluxduqdan sonra onun immun sisteminin (orqanizmin müdafiə qabiliyyəti) hüceyrələri dağılır və insan sonu ölümlə nəticələnən AİDS xəstəliyinə tutulur! AİDS coğrafi və sosial sərhəd tanımır! O, bütün ölkələrə yayılıb və milyonlarla insanın həyatına son qoyub! Hazırda bu xəstəliyin müalicəsi yoxdur və müasir antivirus terapiyası vasitəsi ilə sadəcə bu xəstəliyin inkişafını ləngitmək olur.

**Narkomaniya və AİDS**

Dünyada HİV virusuna yoluxmanın əksər halları (75 %) venadaxili narkotik maddələrdən istifadə zamanı baş verir (ümumi iynə və şprislərdən istifadə edilərkən). HİV-ə yoluxan şəxsin iynəsindən bir dəfə belə istifadə etdikdə yoluxmaq mümkündür! Narkomaniya AİDS-dən də ciddi problemdir və HİV infeksiyasının inyeksiya narkotikləri vasitəsi ilə yayılması ona daha böyük impuls verir.

**AİDS xəstəliyinin əsas simptomları**

- Bədən çəkisinin kəskin şəkildə itirilməsi;
- Uzun müddətli ishal (qarnişləmə);
- Kəskin kandidoz (göbələk) xəstəliyi;
- Boyun və qoltuqlarda düyünlərin yaranması;
- Uzun sürən öskürəklər;
- Uzun müddətli subfebril qızdırma (37°).


**Özünüzü və yaxınlarınızı HIV/AIDS-dən qoruyun!**


**HİV virusuna yoluxmaq mümkündür:**

1. HİV-ə yoluxan şəxslə cinsi əlaqə vasitəsi ilə (sperma və vaginal ifrazat);
2. HİV-ə yoluxan şəxsin qanı vasitəsi ilə (qanköçürmə zamanı, eyni iynə və şprisdən istifadə etdikdə, ülgüc, pirsinq və tatuirovka zamanı);
3. HİV-ə yoluxan hamilə anadan uşağa (yoluxmuş qadından hamiləlik dövründə döl, doğuş və əmizdirmə zamanı süd vasitəsi ilə).

**HİV virusuna yoluxmaq mümkün deyil:**

- Ümumi hamam-tualetdən istifadə zamanı;
- Adi ünsiyyət vaxtı (danışıb söhbətləşmək);
- Öskürdükdə və asqırdıqda;
- Əl-ələ görüşmək, öpüşüb qucaqlaşarkən;
- Göz yaşı, ağız suyu və tər vasitəsi ilə;
- Eyni pal-paltar və yataq dəstindən istifadə edərkən;
- Ümumi istifadədə olan qab-qacaqlardan və yeməklərdən istifadə edərkən;
- Həşəratların sancması və heyvanların dişləməsi vasitəsi ilə.

**HİV/AİDS-dən qorunmağın yolları:**

- İstifadə olunmuş iynə və şprislərdən istifadə etməmək;
- Spirtli içkilərin və narkotik vasitələrin təsiri altına düşməmək;
- Cinsi əlaqə zamanı təhlükəsiz vasitələrdən (qoruyuculardan) istifadə etmək.